AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.com
www.olimpnews.az

Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti

№ 11 (1513), 5 - 11 aprel 2022-ci il

Qəzet 2001-ci ildən çıxır.




## Bir neçə federasiyanın statusu dayandırılıb

Gənclər və İdman Nazirliyinin növbəti kollegiya iclası keçirilib. İclasın gündəliyinə əsasən, mart ayında keçirilmiş bir sıra tədbirlərin hesabatı və müvafiq qərarlar qəbul edilib. İclasda, həmçinin ölkə ərazisində yayılan idman növlərinin tanınması, ictimai birliklərə respublika idman federasiyası statusunun verilməsi haqqında xüsusi komissiyanın arayışı müzakirə edilib. Kollegiyanın qərarına əsasən, "Azərbaycan Üzgüçülük Federasiyası" İB, "Azərbaycan Velosiped İdmanı Federasiyası" İB, "Azərbaycan Respublikasının Atçılıq Federasiyası" İB, "Azərbaycan Respublikası Həndbol Federasiyası" İB, "Azərbaycan Boks Federasiyası" İB, "Azərbaycan Kanoe və Avarçəkmə Federasiyası" İB-in akkreditasiyaları təsdiqlənib.

*(ardı 2-ci səhifədə)*

## Güləşçilərimiz Budapeştdə tarixi qələbə qazandılar

Macarıstanın paytaxtı Budapeştdə keçirilən güləş üzrə böyüklər arasında Avropa çempionatına yekun vurulub. Yarışda güləşin hər üç növündə mübarizə aparan pəhləvanlarımız ümumilikdə Avropa çempionatına 16 (3 qızıl, 6 gümüş, 7 bürünc) medal qazanıblar.

Mübarizəyə birinci başlayan sərbəst güləş millimiz Avropa çempionatında tarixi uğura imza atıb. Komandamız baş məşqçi Namiq Abdullayev, böyük məşqçi Zəlimxan Hüseynov və məşqçi Arif Abdullayevin rəhbərliyi altında iştirak etdiyi yarışda 1 qızıl, 4 gümüş və 2 bürünc medalla komanda hesabında Avropa çempionu adını qazanıb. Pəhləvanlarımızdan Məhəmmədxan Məhəmmədov (97 kq) qızıl, Əliabbas Rzazadə (57 kq), Hacı Əliyev (65 kq), Əşrəf Aşırov (79 kq) və Abubakr Abakarov (86 kq) gümüş, Turan Bayramov (74 kq) və Osman Nurməhəmmədov (92 kq) bürünc medal qazanıb.

*(ardı 2-ci səhifədə)*




## Anons

*"Müharibə vaxtı döyüşlərə yetərincə idmançılar qoşulmuşdu"*

Səh. 3

"Əsas məqsədimiz idmanda düzgün, şəffaf və dayanıqlı sistemin qurulmasını təmin etməkdir"

Səh. 4

*Futbol ulduzları qalereyasından...*

Səh. 6

*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*

**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*




## Olimpizm

### Boks üzrə çəki dərəcələrində dəyişiklik təsdiqləndi

Beynəlxalq Olimpiya Komitəsinin İcraiyyə Komitəsi Yay Olimpiya Oyunlarının boks yarışlarının proqramında dəyişiklik edilməsi barədə qərar qəbul edib. Təsdiq olunan yeni qərara əsasən, 2024-cü ildə Fransanın paytaxtı Parisdə təşkil olunacaq Olimpiya Oyunlarının proqramında çəki dərəcələri müəyyənləşib. Belə ki, növbəti olimpiadada kişi boksçular 8 deyil, 7 (51 kq, 57 kq, 63,5 kq, 71 kq, 80 kq, 92 kq, +92 kq) kiloqram çəki dərəcələrində qüvvələrini sınayacaqlar. Əvəzində qadın idmançılarda 1 çəki dərəcəsi artırılaraq 6-ya çatdırılıb. Belə ki, qadınlar arasında 50 kq, 54 kq, 57 kq, 60 kq, 66 kq, 75 kq çəki dərəcələri üzrə yarışlar təşkil ediləcək.

Nəticədə, kişilər kimi, qadın idmançılar da olimpiadada 124 boksçu ilə təmsil olunacaqlar. Bununla da, boksun tarixində Olimpiya Oyunlarında ilk dəfə gender bərabərliyi təmin olunub.



Fransa paytaxtında medal dəstlərinin ümumi sayında isə dəyişiklik edilməyib. Belə ki, ümumilikdə 13 dəst mükafat sahibini tapacaq.

Qeyd edək ki, Paris Olimpiadası 2024-cü ilin iyulun 26-dan avqustun 11-dək keçiriləcək.

## Azərbaycan Premyer Liqası: "Neftçi" son dəqiqədə məğlubiyyətdən xilas oldu

Səh. 7

**1/4 final**

*5 aprel Saat: 23:00*

*Benfika (Portuqaliya) - Liverpul (İngiltərə)*

*"Estadio da Luz" stadionu*

*Mançester Siti (İngiltərə) - Atletiko Madrid (İspaniya)*

*"Etihad" stadionu*



# Bir neçə federasiyanın statusu dayandırılıb

(əvvəli 1-ci səhifədə)

Bundan başqa, "WKC növləri üzrə Azərbaycan Karate Federasiyası" İB, "Şito-Ryu Karate-Do Federasiyası" İB, "Azərbaycan Coriyo Kunq-Fu Federasiyası" İB, "Azərbaycan Döyüş Federasiyaları Assosiasiyası" İB, "Azərbaycan Dağçılıq və Ekstremal İdman Növləri Federasiyaları Assosiasiyası" İB, "Azərbaycan Skayraninq Federasiyası" İB, "Azərbaycan Boulinq İdman Federasiyası" İB, "Azərbaycan Respublikası Əməyi və Vətəni Müdafiəyə Hazıram Kompleksi və Çoxnövçülüyü üzrə Federasiyası" İB, "Azərbaycan Aykido Federasiyası" İB və "Azərbaycan Dama Federasiyası" İB, "Alpinizm Federasiyası" İB, "Azərbaycan Hava və Ekstremal İdman Növləri Federasiyası" İB, "Azərbaycan Respublikası Səmti Müəyyənetmə İdman Federasiyası" İB və "Budo Döyüş Növləri Federasiyası" İB-nin federasiya statusları dayandırılıb.

Statusu dayandırılmış Budo Döyüş Növləri Federasiyası və Aykido Federasiyası isə birləşdirilib. Bundan sonra bir qurum altında fəaliyyət göstərəcək təşkilata Budo Döyüş Növləri Assosiasiyası adı verilib. Qurumun yeni prezidenti isə "Atilla" idman klubunun prezidenti, polkovnik-leytenant Atil Ağamirov olacaq.

Qeyd edək ki, daha əvvəl Budo Döyüş Növləri Federasiyasına Faiq Rəfiyev, Aykido Federasiyasına isə Fərhad Ələsgərov rəhbərlik edirdi.

Xatırladaq ki, bir neçə aydır nazirliyin nəzdində fəaliyyət göstərən xüsusi komissiyanın təqdimatına əsasən, kollegiya qərarı ilə bu günədək statusu təsdiqlənmiş federasiyaların sayı 17-yə çatıb. Ümumilikdə, 19 federasiyanın isə statusu dayandırılıb. Federasiyaların statusuna baxılması prosesi davam edir.

Gimnastika

# İdman gimnastikası üzrə dünya kubokuna yekun vurulub

Bakıda idman gimnastikası üzrə dünya kuboku yarışları keçirilib. Ölkəmizin gimnastika növləri üzrə bu il təşkil etdiyi dördüncü beynəlxalq yarışda 34 ölkədən 145 idmançı qüvvəsini sınayıb. Dünya kubokunda ölkəmizi Mənsum Səfərov (sərbəst hərəkətlər), Ağamurad Qəhrəmanov (sərbəst hərəkətlər, dayaqla tullanma, paralel qollar,



turnik), İvan Tixonov (dəstəkli at, dayaqlı tullanma, paralel qollar, turnik), Cavidan Babayev (halqa), Nikita Simonov (haqla), Samirə Qəhrəmanova (dayaqlı tullanma, gimnastika tiri, sərbəst hərəkətlər), Milana Minakovskaya (müxtəlif hündürlüklü qollar, gimnastika tiri, sərbəst hərəkətlər) təmsil ediblər.

Milli Gimnastika Arenasında keçirilən yarışda Azərbaycan təmsilçilərindən Nikita Simonov halqalarla yarışda bürünc medal qazanıb. İdmançımız həlledici mərhələdə hakimlərdən 14.500 xal alıb.

Həlledici mərhələdə paralel qollar üzrə ölkəmizi təmsil edən milli komandamızın üzvü İvan Tixonov 13.833 xalla 7-ci pillədə qərarlaşıb.

Mükafatlandırma mərasiminin yekununda kişi və qadınlar arasında bu il keçirilən 4 Dünya kubokunda göstərilən üç ən yaxşı nəticənin yekununa əsasən, idmançılara ayrı-ayrı alətlər üzrə FIG kuboku təqdim edilib. Kişilər arasında sərbəst hərəkətlər üzrə Artyom Dolqopyat (İsrail), paralel qollar üzrə İlya Kovtun (Ukrayna), qadınlar arasında dayaqlı tullanma üzrə Oksana Çusovitina (Özbəkistan), müxtəlif hündürlüklü qollar üzrə isə Daniela Batrona (Ukrayna) FIG kubokuna layiq görülüblər.

Eləcə də ən yüksək icra xalı toplamış gimnastlar - Bolqarıstan təmsilçisi Valentina Georgiyeva və Gürcüstan təmsilçisi İoanne Cimşeleşvili "AGF Trophy" kuboku ilə təltif olunublar.

Qeyd edək ki, yarışlar zamanı iştirakçılara və tamaşaçılara AGF-in 20-ci ildönümünə həsr olunmuş yubiley nişanı və Azərbaycan gimnastikasının nailiyyətlərindən bəhs edən videoçarx nümayiş etdirilib.

Məlumat üçün bildirək ki, bu il oktyabrın 7-də Azərbaycan Gimnastika Federasiyasının (AGF) yenidən qurulmasının 20 ili tamam olacaq.

* * *

Portuqaliyanın Kantanhede şəhərində aerobika gimnastikası üzrə dünya kuboku yarışları keçirilib. Yarışda ölkəmizi yığma komandanın 3 idmançısı təmsil edib. Qarışıq cütlüyümüz Mədinə Mustafayeva və Vladimir Dolmatov medala qazanmağa yaxın olsalar da, hakimlərdən lazımi xalı toplaya bilməyən idmançılarımız final mərhələsini beşinci pillədə başa vurublar.

Fərdi proqramda gimnastımız Vladimir Dolmatov yeddinci olub.

İdmançılarımız üçlük tərkibində (Dolmatov Vladimir, Xoşqədəm Quliyeva, Mədinə Mustafayeva) 8-ci pillədə qərarlaşıblar.

Qadınların fərdi proqramında qüvvəsini sınayan Mədinə Mustafayeva təsnifat mərhələsində 13-cü olub.

* * *

Aprelin 22-dən 24-dək gimnastika ictimaiyyətinin diqqəti yenidən Azərbaycanın paytaxtı Bakıya cəmlənəcək. Belə ki, dünyanın ən güclü bədii gimnastları bu dəfə ölkəmizdə təşkil olunacaq dünya kuboku yarışlarında bir araya gələcəklər. Azərbaycanın gimnastika növləri üzrə bu il ev sahibliyi edəcəyi beşinci beynəlxalq yarışda qeydiyyat siyahısına əsasən 32 ölkədən 40-ı fərdi və 60-ı qrup komandasının (10 qrup) üzvü olmaqla 100 gimnastın iştirakı gözlənilir.

Üç gün davam edəcək yarışda gimnastlar ayrı-ayrı alətlər və çoxnövçülük üzrə mübarizə aparacaqlar.

Ənənəyə uyğun olaraq, turnirdə ən çox icra xalını yığmış gimnast və qrup komandasına ənənəvi "AGF Trophy" kuboku da təqdim olunacaq.

Qeyd edək ki, bu, ölkəmizdə bədii gimnastika üzrə təşkil olunacaq doqquzuncu dünya kuboku yarışları olacaq. Xatırladaq ki, paytaxtımız 2005-ci və 2019-cu illərdə bu növ üzrə dünya çempionatına ev sahibliyi edib.

Qeyd edək ki, ikiillik fasilədən sonra xüsusi karantin rejimi çərçivəsində yumşalma tədbirləri ilə əlaqədar olaraq tamaşaçılar Milli Gimnastika Arenasında bu növ üzrə də yarışları izləmək imkanı əldə edəcəklər. Yarışlarda tamaşaçı qismində iştirak edəcək şəxslər etibarlı olan COVID-19-a qarşı peyvənd olunmanı təsdiqləyən peyvənd sertifikatına və ya COVID-19-dan sağalaraq immunitetə malik olmanı təsdiqləyən sənədə, COVID-19-a qarşı peyvənd əks-göstərişi müəyyən edən əks-göstəriş sertifikatına (yaşı 18-dən aşağı olan şəxslər istisna olmaqla) malik olmalıdırlar.



# Avropa çempionatında uğurla çıxış edən boksçularımızla görüş keçirilib

Gənclər və idman naziri Fərid Qayıbov Xorvatiyanın Poreç şəhərində keçirilmiş 22 yaşadək boksçular arasında Avropa çempionatında uğurla çıxış etmiş Azərbaycan idmançıları ilə görüşüb. Görüşdə boksçuları qitə çempionatında uğurlu çıxışları münasibətilə təbrik edən Fərid Qayıbov onlara növbəti yarışlarda yüksək nailiyyətlər arzulayıb.

Xatırladaq ki, komandamız Avropa çempionatında oğlanlar arasında ümumi hesabda 1 qızıl, 1 gümüş, 2 bürünc medala sahib olmaqla 39 ölkə arasında dördüncü yeri tutub. Təmsilçilərimizdən Nicat Hüseynov (51 kq) Avropa çempionu olub, Ruslan Qədirov (54 kq) gümüş, Cəlal Qurbanov (63,5 kq) və Nəbi İsgəndərov (67 kq) isə bürünc medal qazanıblar.

# Güləşçilərimiz Budapeştdə tarixi qələbə qazandılar




(əvvəli 1-ci səhifədə)

Yekunda 159 xal toplayan millimiz komanda hesabında Avropa çempionu olub. Azərbaycan ikinci pillədə qərarlaşan Türkiyəni 18 xal qabaqlayıb. Üçüncü yeri tutan Gürcüstan isə 133 xal toplayıb. Beləliklə, sərbəst güləş üzrə yığmamız 3-cü dəfə Avropanın ən güclü komandası adına sahib çıxıb. Millimiz 2009-cu ildə Litvanın paytaxtı Vilnüsdə və 2017-ci ildə Serbiyanın Novi Sad şəhərində təşkil olunan analoji yarışlarda da qitə çempionu olub.

Qeyd edək ki, bu, sərbəst güləşçilərin son 1 ayda ikinci uğurudur. Martın 7-13-də Bolqarıstanın Plovdiv şəhərində baş tutan U-23 Avropa çempionatında da müvafiq millimiz komanda hesabında birinci yeri tutmuşdu.

Qadın güləşində isə Elis Manolova (65 kq) Budapeştdəki çempionatda gümüş medala sahib çıxıb.

Yunan-Roma güləşi üzrə millimiz də Avropa çempionatında tarixi uğura imza atıb. Baş məşqçi Aleksandr Tarakanov, böyük məşqçi Rövşən Bayramov və məşqçi Həsən Əliyevin rəhbərliyi altında 10 güləşçiylə yarışda təmsil olunan komandamızın 8 üzvü fəxri kürsüyə qalxıb. Klassiklərimiz çempionatı 2 qızıl, 1 gümüş və 5 bürünc medalla başa vurublar. Təmsilçilərimizdən Eldəniz Əzizli (55 kq) və Rafiq Hüseynov (82 kq) çempionatın qızıl medallarına layiq görülüblər. Rafiq Hüseynov bununla karyerasında üçüncü dəfə Avropa çempionu tituluna sahib çıxıb.

Taleh Məmmədov (63 kq) gümüş, Murad Məmmədov (60 kq), Həsrət Cəfərov (67 kq), Ülvü Qənizadə (72 kq), Sənan Süleymanov (77 kq) və İslam Abbasov (87 kq) isə bürünc medal qazanıb.

Onlar komandaya müvafiq olaraq 25, 20 və 15 xal qazandırıblar. Beşinci yeri tutan Murat Lokyayevlə (97 kq) Beka Kandelaki (130 kq) isə 10 xalı millimizin xal ehtiyatına əlavə edib.

Beləliklə, yığmamız 165 xalla tarixində ilk dəfə komanda hesabında Avropa çempionu olub. Türkiyə 150 xalla 2-ci, Gürcüstan isə 114 xalla 3-cü yeri tutub. Həm medalların sayına, həm əyarına, həm də toplanan xallara görə Azərbaycan yunan-Roma güləşi tarixində yeni rekord qeydə alınıb.

Vətən müharibəsinin idmançı qəhrəmanları

# “Müharibə vaxtı döyüşlərə yetərincə idmançılar qoşulmuşdu”

Biz illərdən bəri düşmən əsarətində qalan torpaqları 44 gün ərzində yaddellilərdən təmizləyən bir xalqın övladlarıyıq. Bütün dünya Azərbaycan ordusun şücayətindən hələ də danışır və danışacaq. Bu orduda Vətəni canından və doğmalarından əziz tutan qəhrəman oğullar döyüşdü və düşməni dizi üstə çökdürdü. Vətən uğrunda döyüşən neçə-neçə qəhrəmanlar şəhidlik zirvəsinə ucaldı. Ərazi bütövlüyümüz uğrunda başlanan müharibədə qazanılan qələbədən sonra hərbçilərimiz yenidən öz ailəsinə qovuşdu. Vətən müharibəsinə öz saylarında xüsusi yer ayıran “Olimpiya dünyası” qəzeti bu dəfə qəhrəman qazilərimizdən biri ilə müsahibəni oxucularımıza təqdim edir. Müsahibimiz “Cəbrayılın azad olunmasına görə” və “Xocavəndin azad olunmasına görə” medalları ilə təltif olunmuş qazi, keçmiş güləşçi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının hüquq şöbəsinin müdir müavini Ruslan Bağırovdur. 44 günlük müharibədə iştirak edən qazimizlə söhbət zamanı bir sıra maraqlı məqamları yada saldıq.



***- Ruslan müəllim, əvvəlcə özünüz barəsində qısa məlumat verərdiniz.***

- Mən 1982-ci ildə Yardımlı rayonunda anadan olmuşam. Orta məktəbə Yasamal rayon 52 saylı tam orta məktəbdə başlayıb, 8-ci sinifdə isə təhsilimi Fizika, Riyaziyyat və İnformatika Təmayüllü Respublika Liseyində davam etdirmişəm. Sonra isə Əmək və Sosial Münasibətlər Akademiyasının maliyyə fakültəsinin məzunu olmuşam. Bundan başqa Ukraynada V.N.Karazin adına Beynəlxalq Universitetin hüquq fakültəsində ikinci təhsilimi almışam. Təhsilimi başa vurduqdan sonra 2004-cü ilə Azərbaycan Silahlı Qüvvələrinin ordu sıralarında xidmət etmişəm. Həqiqi hərbi xidmət dövründə 9 aydan sonra ehtiyat zabit kursuna daxil olmuşam. Burada ən çox idmana üstünlük verilirdi.

Müəyyən dövrlərdə gizlin şəkildə, evdən və işdən xəbərsiz təlimlərdə iştirak edirdim. Biz əmin idik ki, bir vaxt gələcək ki, öz təcrübəmizi müharibədə sınaqdan keçirəcəyik. 2020-ci ilin sentyabrın 27-də mənə bildirdilər ki, sən hərbiyə çağırılırsan. Çağırış vərəqəmlə birlikdə mənə deyilən hərbi hissəyə yollandım. Bir neçə gün təlim keçdikdən sonra bizə müvafiq tapşırıqlar verildi. Füzuli rayonunda yerləşdik. Döyüş yolum çox geniş və fərqli ərazilərdən keçib.



***- Yəqin ki, müharibə kitablardan oxuduğumuz və filmlərdə gördüyümüz kimi deyil.***

- Əlbəttə. Müharibə sözü sadə səslənsə də, onun daxilində çox ağır məqamlar və hadisələr öz əksini tapıb. Burada həyatla ölüm arasında bir ortaq nöqtə yer alıb. Burada zəfər də var, məğlubiyyət də. Şükürlər olsun ki, biz zəfər qazanan tərəfə olduq. Müharibə uzun illərdən bəri qisas yanğısı ilə alışıb, yanan bir millətin haqq uğrunda vuruşması deməkdir. Müharibə bizə çox şeyi öyrədib, çox şeyi göstərdi. Biz bu döyüşlərdə bir amal uğrunda dəmir yumruğa çevrildik. Bu müharibədə hamı zəfər üçün öz töhfəsini verməyə çalışdı. Kimisi döyüş meydanında əlində silah tutaraq, kimisi də cəbhədə döyüşən əsgərlərə yardım və sovqatlar göndərməklə öz dəstəyini göstərdi. Nəticəsi isə sözlə ifadə olunmayan qələbə oldu.

Sözsüz ki, müharibənin acılı tərəfləri də var. Ən təsirli və ağrılı məqamlardan biri də bir neçə saat, hətta bir neçə dəqiqə əvvəl yanında olan və söhbət etdiyin hərbçi yoldaşının şəhid olmasıdır. Orada hər kəsin fərqli arzuları olsa da, məqsəd eyni idi. Müharibəni qələbə ilə başa vurmaq. Hər kəs söhbət zamanı öz evinə ailəsinin yanına qayıdacağı anı danışırdı. Amma bir də görürdün ki, həmin insan artıq həyatda yoxdur. Belə hallar bizdə qisas hissini daha da artırırdı.

***- Düşmən çətin ki, bundan sonra özünə gələr. Lakin baş verənləri unutmalı deyilik. Siz bu barədə nə deyərdiniz?***

- Müharibənin yazılmayan qanunları var. Bir-birinə düşmən olan tərəflər öz aralarında haqq-hesab çəkirlər. Düşmən sözü ermənilər üçün çox yüksək dəyərdir. Onlar haqqında elə bir söz yoxdur ki, deyəsən, bəlkə sakitləşəsən. Tarixən öz vəhşilikləri ilə xalqımıza divan tutan ermənilərin insanlığa yaraşmayan əməllərini əsla unutmaq olmaz. Onlar özlərini yad torpaqlarda ev sahibi kimi aparmağa çalışırdılar. Lakin bu doğma torpaqların əsl sahibləri onlara öz yerlərini göstərdilər. 30 ildən bəri mənfur düşmən tapdağı altında inildəyən Qarabağımız Vətənin mərd və igid övladları tərəfindən azadlığına qovuşdu. Fəqət düşmən elə düşmən kimi qalır və qalacaq. Biz sübut etdik ki, ermənilər qorxaq, lakin hiyləgər bir kütlədir. Onların bizim başımıza gətirdikləri faciələr heç vaxt unudulmayacaq.

***- Bildiyimizə görə, vaxtilə sərbəst güləşlə məşğul olmusunuz.***

- Bəli, uzun müddət yunan-Roma güləşi ilə məşğul olmuşam. “Dinamo”, AHİTA və Ordu İdman Klubunda məşq etmişəm. Bakı çempionatı və digər ölkədaxili yarışlarda iştirak edərək fəxri kürsüdə yer almışam. Həmin vaxtlar Arif Abdullayevlə birgə məşq edirdik. İdmanda əldə etdiyim təcrübə mənə müharibədə böyük kömək oldu.

***- Fiziki və mənəvi hazırlığı olan bir əsgər qələbənin əsas hissəsidir.***

- Bir döyüşçünün fiziki və mənəvi hazırlığı müharibədə öz sözünü deyir. Müharibə vaxtı döyüşlərə yetərincə idmançılar qoşulmuşdu. İdmanla məşğul olan əsgər və zabitlər baş verən hadisələrə daha soyuqqanlı və səbrlə yanaşırlar. Bundan başqa döyüşə yollanan əsgərlər arasında mehribanlıq və etibar əsas amil idi. Əsgər öz yeməyini yemir, zabitə təklif edir. Zabit isə tox olduğunu bildirir, yeməyini əsgərə verirdi. Belə bir ordu yalnız yüksək sözlərə və dəyərə layiqdir.

***- Müharibəyə yollanmazdan əvvəl ailədə bu istəyə olan reaksiya necə idi?***

- Əvvəlcə qeyd edim ki, ailəliyəm, iki övladım var. Müharibəyə gedəndə ailəmə yalan demək məcburiyyətində qaldım. Anam şəkər xəstəsi olduğu üçün əsl həqiqəti deməyə ürək etmədim. Oğluma demişdim ki, ata məktəbdədi, gələcək. Həqiqəti isə qızım bilirdi. Onu aldatmaq mümkün olmadı. Müharibə başa çatdıqdan sonra xüsusi tapşırıq üçün Bakıya gəldim. Fürsət tapıb ailəmlə də görüşdüm. Amma sonradan heyfisləndim ki, gərək görüşməyəydim. Lakin çox darıxmışdım. Bir neçə dəqiqəlik olsa belə görmək istəyirdim. Ailəmdə bir narahatlıq var idi. Onlar elə düşünürdülər ki, yəqin nəsə var və mən onu gizlədirəm.



***- Döyüş vaxtı qarşılaşdığınız ən maraqlı məqam hansı oldu?***

- Döyüşlərin hər bir məqamı maraqlı və gərgin idi. Təsəvvür edin ki, 20 il görmədiyim sinif yoldaşımla müharibədə qarşılaşdım. Bir-birimizi görməyə elə şad idik ki, ayrılmaq belə istəmirdik. Hələ də həmin anları xatırlayıram.

Mühasirədə olsaq da bunu son döyüş kimi qəbul etmirdik. Son bir dəfə oldu və həmin o son nöqtəni də biz qoyduq. Bundan sonra düşmən hərbi kapitulyasiya aktı imzalamağa məcbur oldu.

***- Yəqin ki, müharibədən sonra şəhidlərimizin məzarını ziyarət etdiniz. Budəfəki ziyarət sizdə hansı hissləri oyatdı?***

- Bəli, müharibədən qayıdandan sonra Şəhidlər Xiyabanını və Vətən müharibəsində şəhid olan hərbçi yoldaşların məzarını ziyarət etdim. Bunu özümə borc bildim. Budəfəki ziyarətdə isə sanki bir az rahatlıq tapdım. Çünki torpaqlarımız azad olunmuşdu, başımız uca idi.

***- Müharibədən sonra Sizi iş kollektivinizdə necə qarşıladılar?***

- Müharibədən sonra yenidən iş fəaliyyətimi bərpa etdim. Burada məni Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, millət vəkili Səttar Mehbalıyev və gözəl kollektivimiz qarşıladı. Səttar müəllim hər zaman şəhid ailələrinə, qazilərə və Vətən müharibəsinin iştirakçılarına diqqət və qayğı ilə yanaşır. O, Azərbaycanın bütün bölgələrində olan şəhid və qazi ailələrinə yardım sovqatları göndərir onların problemləri ilə maraqlanır. Mən özüm də sədrin qayğısını hər zaman hiss edirəm.

***Anar Əhmədov***

## Boksçularımızın beynəlxalq arenada uğurlu çıxış yolları müzakirə edilib

Azərbaycan Boks Federasiyasının (ABF) prezidenti Sahil Babayev veteran boksçularla görüşüb. ABF-nin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə Olimpiya mükafatçıları, Avropa və dünya çempionatlarında ölkəmizin adını şərəflə qorumuş milli komandamızın keçmiş üzvləri iştirak ediblər. Tədbirdə boksda yüksək nailiyyətlərin əldə olunması, kütləviliyin artırılması üçün vacib olan addımlar, boksun ölkəmizdə daha da populyarlaşması və yığma komandaların beynəlxalq arenada uğurlu çıxış yolları müzakirə edilib. Həmçinin, Çempionlar və Veteranlar Komitəsinin yaradılması ilə bağlı fikir mübadiləsi aparılıb.

S.Babayev bildirib ki, Azərbaycanda bütün sahələrdə olduğu kimi, idmana da göstərilən dövlət qayğısı sayəsində ölkəmiz böyük irəliləyişlərə nail olub. Olimpiya Oyunlarında medal sayına görə boksun ikinci yerdə olduğunu xatırladan federasiya rəsmisi qeyd edib ki, əsas hədəf yeni rekordlardır. İyirmi iki yaşadək boksçularımızın Avropa çempionatındakı çıxışını yüksək qiymətləndirən S.Babayev 4 medalın əldə olunmasını başlanğıc kimi dəyərləndirib. O, əsas hədəfin Paris Yay Olimpiya Oyunları olduğunu vurğulayaraq yeni rekordun Fransa paytaxtında vurulacağına inam ifadə edib.

İnkişaf üçün beynəlxalq təcrübənin öyrənilməsinin vacibliyindən danışan S.Babayev federasiyanın yeni strukturunda xüsusi komitələrin olacağını deyib. O bildirib ki, Azərbaycanda boks məktəblərinin formalaşması, təkcə Bakıda deyil, bölgələrdə də kütləviləşməsi üçün veteran boksçuların köməyinə ehtiyac duyulacaq. Bu səbəbdən də federasiyada veteranlardan ibarət Məşvərət Şurası formalaşdırılacaq. O, görüşdə iştirak edən sabiq boksçulara bununla bağlı tapşırıqlarını da verib.

Daha sonra veteran boksçular inkişaf üçün görülməli olan işlərdən və uğurlu çıxış üçün vacib amillərdən danışıb, təkliflərini veriblər.

S.Babayev idmançıları dinlədikdən sonra bildirib ki, boksda yüksələn xətlə inkişafa nail olmaq əsas məqsəddir. Təkliflərə əsasən, gələcəkdə zona yarışlarının, məşqçi, idmançı və hakimlər üçün seminarların keçiriləcəyinin nəzərdə tutulduğunu qeyd edən federasiya rəhbəri vahid və ədalətli boks ailəsinin formalaşacağını deyib. O, veteranların hər birindən təklif gözlədiyini bildirərək Veteranlar Komitəsinin formalaşdırılması üçün lazımı addımların atılmasını istəyib.

Tədbirdə regionlarda boksun inkişaf yolları, həmçinin klublarla iş birliyi barədə də müzakirələr aparılıb, federasiyanın İdarə Heyətinə lazımi tapşırıqlar verilib.

## Ölkəmizdə “Olympic Hopes 2022” beynəlxalq karate turniri keçiriləcək

Avqustun 27-28-də Bakıda uşaqlar arasında “Olympic Hopes 2022” beynəlxalq karate turniri keçiriləcək.

Azərbaycan Milli Karate Federasiyasının (AMKF) mətbuat xidmətindən verilən məlumata görə, uşaqlar arasında ilk dəfə təşkil ediləcək böyükmiqyaslı yarış Dünya Karate Federasiyasının (WKF) təqviminə daxil edilib. Yarış ərəfəsində tanınmış Azərbaycan karateçilərinin iştirakı ilə seminarın təşkili də nəzərdə tutulub. Turniri idarə etmək üçün bir neçə ölkədən beynəlxalq hakimlər dəvət ediləcək.

**Bizim müsahibə**

# "Əsas məqsədimiz idmanda düzgün, şəffaf və dayanıqlı sistemin qurulmasını təmin etməkdir"

***Ötən ilin sonlarından başlayaraq ölkəmizdə fəaliyyət göstərən bir neçə idman federasiyasında yeni prezident seçkiləri keçirildi. Azərbaycan idmanının inkişafında yeni mərhələyə hesablanan bu seçkilərdən sonra hətta bir neçə federasiyada yeni rəhbər dəyişiklikləri də baş verdi. Azərbaycan Stolüstü Tennis Federasiyasında da yeni prezident seçkiləri keçirildi. Federasiyanın ümumi yığıncağında yenidən baş nazirin müavini Şahin Mustafayevə etimad göstərildi.***

***Bu yaxınlarda seçkilərdən sonra federasiyanın idman həyatında baş verən yeniliklər və strategiyaları haqda məlumat əldə etmək üçün Azərbaycan Stolüstü Tennis Federasiyasının vitse-prezidenti, Azərbaycan Ağır Atletika Federasiyasının vitse-prezidenti, Kənd Təsərrüfatı nazirinin müşaviri Səbuhi Mehtizadə ilə görüşdük. Müsahibimiz federasiyanın gələcək planları barədə ətraflı məlumat verdi.***



***- Səbuhi müəllim, istərdik ki, söhbətimizə Azərbaycan idmanında baş verən yeniliklərlə başlayaq. Ötən ilin sonlarından Stolüstü Tennis Federasiyasında yeni prezident seçkiləri oldu. Seçkilərdən sonra baş verən yeni dəyişikliklər barədə bir qədər məlumat verərdiniz.***

- Ötən il dekabrın 27-də Azərbaycan Stolüstü Tennis Federasiyasının ümumi yığıncağı keçirildi. Yeni seçkilərdə stolüstü tennis ailəsi baş nazirin müavini cənab Şahin Mustafayevi növbəti dəfə Stolüstü Tennis Federasiyasına prezident seçdi. Bu, o deməkdir ki, Şahin müəllimin dövründə idarəçilik tam şəffaf, düzgün, həm qısa, həm də uzunmüddətli strategiya üzrə planlı şəkildə aparılıb. Seçkilərdən sonra bir neçə dəyişiklik həyata keçirildi. Bunlardan biri Elmar İslamın Stolüstü Tennis Federasiyasına yeni üzv, həmçinin vitse-prezident seçilməsi ilə bağlıdır. O, bu vəzifədə Fazil Məmmədovu əvəz etdi. Bundan başqa tennis ailəsinin üzvü olan Könül Mikayılova federasiyaya yeni baş katib seçildi. Bu da düşünülmüş bir addım idi. Könül Mikayılova həm idarəçi kimi tam hazır kadrdır, həm də idman sahəsində tanınmış mütəxəssisdir. O, 1982-ci ildən stolüstü tennislə məşğul olur. Hətta onun ailəsi də, bu idman növünə bağlı olan insanlardır. Bir sözlə, baş katibimiz kənardan yox, stolüstü tennis ailəsinin içərisindən seçilib. İnanırıq ki, Könül xanım həm federasiyanın gələcək işlərində, həm idarəçilikdə, həm də idmançılarla əlaqəli işlərdə öz töhfəsini verəcək.

***- Bir çox federasiyalarda həmişə yeni seçkilərdən sonra qısa və uzunmüddətli strategiyalar müəyyən edilir. Bəs Stolüstü Tennis Federasiyasının əsas strategiyaları nələrdən ibarətdir?***

- Bizim strategiyamız 2014-cü ildən başlayıb. İlkin mərhələdə qısamüddətli strategiyaya üstünlük verdik. Amma paralel olaraq uzunmüddətli strategiyanın da həll yollarını taparaq icrasına başladıq. Bildiyiniz kimi, biz qısamüddətli startegiyaya legionerlərlə başlamışdıq. Bunun üçün komandamıza xarici məşqçilər və milliləşdirilmiş idmançılar cəlb etdik. Bununla yerli idmançılarımız arasında rəqabət mühitini formalaşdıraraq, medal həvəsini, qalib gəlmək ruhunu yaratmaq istəyirdik. Çinli idmançıları milliləşdirdikdən sonra yerli idmançılarımız onlarla dost oldular, bir-birlərini yaxından tanıdılar, təcrübələrini bölüşdülər. Həmin çinli idmançılar öz məşq proseslərini tennisçilərimizə də danışdılar və onlarda qalib gəlmək inamı artdı. Bundan sonra bizim kiçikyaşlı istedadlı idmançılarımız yarandı. Artıq sevindirici haldır ki, bu gün bizim idmançılarımız "ETTU Eurotalents" adlı istedadların axtarışı proqramına düşüblər. Bu, bizim bir növ qısamüddətli strategiyamızın inteqrasiyasıdır.

Uzunmüddətli startegiyadan danışanda isə hansısa bir yaş həddindən sonra xarici klublara uşaq idmançıların transfer olunmasını qeyd etmək olar. Biz hazırda bunun üzərində işləyirik. Beynəlxalq Stolüstü Tennis Federasiyasının yeni transfer saytı açılıb. Uşaqlar öz oyunlarının videosunu həmin sayta yerləşdirirlər. Bu, bir növ istedadlı idmançıların aşkara çıxarılması və klublarda iştirak etmək şanslarını artırır. Bu, Avropa və Beynəlxalq Stolüstü Tennis Federasiyasının yeni bir layihəsidir. Biz də bu fikri dəstəklədik. Bizim idmançımız Ansari İbrahim həmin saytdan qeydiyyatdan keçib, Finlandiya və İsveçrədən təkliflər alıb.

***- Yığma komandanın əvvəlki üzvlərinin bir neçəsi hazırda məşqçiliklə məşğul olurlar. Bunun üçün federasiya gənc məşqçilərə necə dəstək olur?***

- Bu gün 2014-2015-ci ilin yığma komandasının idmançılarının 90 faizi məşqçilik edirlər. Biz bununla pilləli sistem yaratdıq. Bir uşaq digər uşağı əvəz edir. Yuxarı pillədə olan idmançılar uşaqlara kömək edirlər. Əslində, bu məsələ də bizim uzunmüddətli strategiyalarımızdan biridir. 2014-cü ildən federasiya olaraq məşqçi axtarışına çıxdıq. Bunun üçün respublika üzrə məşqçiləri sınaqdan keçirdik, onlarla müqavilələr bağladıq. Müqavilə əsasında hər bir məşqçiyə qoyulan minimum hədd 6-8 yaşından ibarət 10 uşağın hazırlanması ilə bağlı idi. Müqavilələr bağladıqdan sonra seleksiya işlərinə başladıq. Uşaqları seçərək yığmaya gətirdik. Bu mərhələdə isə artıq 800-1000 nəfərdən ibarət uşaqlarımız var idi. Biz həmçinin məşqçilər arasında da seleksiya işləri apardıq. Həm hakimlik, həm də məşqçilər üçün beynəlxalq federasiya tərəfindən kurslar təşkil etdik. Bu gün də məşqçilərin səviyyəsinin artırılması üçün bu proses davam etdirilir. Belə ki, onlar üçün ölkədaxili və beynəlxalq seminar və kurslar təşkil etmək, ali təhsilli idmançıların məşqçi kimi işlə təmin olunmasını stimullaşdırmaq və ölkənin müxtəlif regionlarında məşqçilərlə müqavilələr bağlamaq əsas hədəflərimizdəndir.

***- Stolüstü tennis idman növündə sparrinq xüsusi əhəmiyyət kəsb edir. Bu, bilavasitə idmançının inkişafını şərtləndirən amillərdəndir. Bunu nəzərə alaraq federasiya hansı addımları atır?***

- Bu gün sparrinq məsələsi qarşımızda çox ciddi problem kimi dayanır. Bildiyiniz kimi, stolüstü tennis yüksək texnika və sparrinq tələb edən idman növüdür. İki eyni səviyyədə oynayan tennisçi heç vaxt inkişaf edə bilməz. Tennisçi hər zaman çalışmalıdır ki, özündən güclü idmançı ilə oynayaraq inkişafa nail olsun. Bu da bir növ stolüstü tennisçilərimizin böyük problemi idi. Təbii ki, biz də bu problemin aradan qaldırılması üzərində işləyirik. Bunun üçün uzunmüddətli strategiyaya uyğun olaraq Türkiyə, İran və Rusiya ilə memorandumlar imzalamışıq. Bu memorandumun səyəsində idmançılarımız qonşu ölkələrlə birgə təlim-məşq toplanışlarında iştirak edirlər.

***- Hazırda komandanın həyatında legioner idmançılar varmı?***




- Legioner idmançılar milliləşdirilərək Azərbaycanın vətəndaşı olublar. Onlar bu gün də bizimlədirlər. Lazım olarsa həmin idmançıları dəvət edərək ölkəmiz adından yarışa çıxara bilərik. Amma biz bunu istəmirik. Həmin dövr artıq geridə qaldı. Federasiyanın adından deyə bilərəm ki, bu gün biz istəyimizə nail olduq. İndi uşaq, yeniyetmə və gənclərin inkişafına nail olmağa çalışır, rəqabətədavamlı bir komanda formalaşdırmağı qarşımıza məqsəd qoymuşuq. Bu gün biz özümüzü Avropada təsdiq etməyi bacardıq. İstəyirdik ki, idmançılarımız qalib ruhunun dadını görsünlər. Bizə bu mənzərəni yaratmaq lazım idi.

***- Pandemiyaya qədər stolüstü tennis idman növü özünün inkişaf mərhələsində idi. Məlum hadisələr bu idman növünün inkişafına nə dərəcədə təsir göstərdi və federasiya bu baxımdan çıxış yolunu nədə gördü?***

- Digər idman növlərinə məşq etməyə icazə verilsə də stolüstü tennisdə bu mümkün olmadı. Biz açıq havada fiziki hazırlıqdan başqa heç nə edə bilmədik. Küləkli olduğuna görə açıq havada oynamaq mümkün olmurdu. Bir sözlə, zalların bağlanmasının böyük təsirləri oldu. Qeyd etdiyim kimi, bizdə sparrinqdən çox şey asılıdır. Məşqçilərimiz kiçik yaşlı uşaqlarla onlayn qaydada məşq keçərək onların topa olan hissiyyatının itməməsinə çalışdılar. Amma onlayn qaydada məşqlər o qədər də faydalı olmadı. Sparrinq şəklində məşqlər keçmədən idmançı nə qədər formada qala bilər? Bu səbəbdən də biz kiçikyaşlı istedadlı uşaqlarımızın bir qismini itirdik. Zallarımız açıldıqdan sonra isə millət vəkillərimizin köməyi sayəsində paytaxtda və bölgələrdə layihələr icra edirik. Rayonlarda məktəblərə stolüstü tennis inventarları paylayırıq. Müxtəlif layihələrlə rayonlarda kütləviliyi artıraraq uşaqlarda bu idman növünə maraq yaratmağa çalışırıq. Bir müddət keçdikdən sonra federasiyanın nümayəndələrini həmin əraziyə ezam edirik. Onlar orada olan uşaq və gənclərə ustad dərsləri keçirlər. Biz bu qayda ilə əvvəlcə stolüstü tennisi məkləblərdə uşaqlara təbliğ edir, kütləviliyi artırır, sonra isə gəlib onlara necə peşəkar oynamağı öyrədirik. İnanırıq ki, bu layihə də tezliklə öz bəhrəsini verəcək və qarşıdakı illərdə onların arasından peşəkar idmançılar çıxacaq.

***- Ölkəmizin gələcəkdə stolütü tennis üzrə yenidən beynəlxalq turnirlərə ev sahibliyi etmək kimi niyyəti varmı?***

- Biz bu gün federasiya olaraq kiçikyaşlı idmançılar arasında beynəlxalq reytinq turnirləri təşkil etməyi məqsədəuyğun hesab edirik. Çünki bu tipli yarışlarda bizim uşaq və yeniyetmə tennisçilərimiz də iştirak edərək təcrübə toplayacaqlar. Bunun üçün biz türkdilli dövlətlər arasında turnir təşkil etmək istəyirik. Bu yarışın ölkəmizdə və ya Türkiyədə keçirilməsi məsələsi isə danışıqlardan sonra məlum olacaq. Biz əslində, pandemiya dövründən əvvəl bu barədə fikirləşirdik. Bu gün də bu yarışın təşkil edilməsi məsələsi gündəmdədir. İTTF və ETTU-nun reytinq cədvəlində uşaqlar və yeniyetmələr üçün çempionatın keçirilməsində böyük növbə var. Hər kəs bu yarışları öz ölkəsində keçirmək istəyir. Buna isə Avropa və Beynəlxalq Stolüstü Tennis Federasiyası qərar verir.

***- Siz eyni zamanda Azərbaycan Ağır Atletika Federasiyasının vitse-prezidenti vəzifəsini də icra edirsiniz. Yeni işiniz sizin üçün nə dərəcədə çətin olacaq?***

- Bu yaxınlarda Ağır Atletika Federasiyasında prezident seçkiləri keçirildi. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı naziri İnam Kərimov federasiyanın yeni prezidenti seçildi. Mən də bu federasiyanın üzvü oldum. Sonradan isə təqdimat olundu və Ağır Atletika Ferasiyasının vitse-prezidenti seçildim. Bu etimada görə federasiya rəhbərliyinə və üzvlərinə minnətdarlığımı bildirirəm. Burada da əsas məqsədimiz idmanda düzgün, şəffaf və dayanıqlı sistemin qurulmasını təmin etmək, yeni uğurlar və nəticələrin qazanılmasıdır. Ağır Atletika Federasiyasında da Stolüstü Tennis Federasiyasında olduğu kimi, ictimai əsaslarla çalışıram. Əsas işim Kənd Təsərrüfatı nazirinin müşaviri vəzifəsidir. Ağırlıqqaldırma mənim üçün yeni bir idman növüdür. İdman növlərinin ümumi strukturu var ki, bunlar oxşardır. Hər bir idman növündə qısamüddətli və uzunmüddətli strategiyalar və tədbirlər planı hazırlanır. Bunlar olmasa federasiyanın fəaliyyəti təhlükə altında olar. Federasiya prezidenti seçkilərdən sonra bölgələrə səfərlər edir, burada olan idman şəraiti ilə yaxından tanış olur. Belə bir tezis var ki, "çempionlar kəndlərdən çıxır". Biz də bu baxımdan rayonlarda, kəndlərdə və ətraf bölgələrdə idmanın təbliğatı və inkişafı ilə məşğul olacağıq. Yaxın günlərdə yeni 5-6 bölmənin yaradılması gözlənilir. Çalışacağıq ki, bizə olan etimadı doğruldaq və yeni uğurlar əldə edək.

***- Ağırlıqqaldırma dopinq qalmaqalı baxımdan idman cəmiyyətinin ən yaralı yeridir. Hətta bir neçə idmançımız dəfələrlə bu bəlaya görə sanksiyalara məruz qalıblar. Federasiya olaraq bu problemi aradan qaldırmaq üçün hansı tədbirlər görüləcək?***

- Biz qısa bir müddətdir ki, işə başlamışıq. Bildiyiniz kimi, bu idman növündə dopinq məsələləri çox geniş yayılıb. Burada Beynəlxalq Ağır Atletika Federasiyasının da böyük günahı var. Bunların hamısı bir korrupsiya əməli idi. Bu hallara görə hazırda beynəlxalq federasiyanın üzvlərinə sanksiyalar tətbiq olunub. Biz idman cəmiyyətinin yaralı yeri olan dopinq məsələsi ilə ciddi məşğul olmalıyıq. Çünki belə məsələlər federasiyamız üçün mənfi haldır. Düşünürəm ki, biz bu bəlanı bu günki gündə narkomaniya ilə bərabər tutmalıyıq. Bunun üçün çalışacağıq ki, bu məsələ ilə bağlı işlərimizi AMADA ilə birgə quraq. Həm idmançı, həm də idarəçilər üzərində nəzarət mexanizmi elə olmalıdır ki, belə əməllərə bir daha yol verilməsin. Bunun üçün mübarizə sistemləri yaradılacaq. Bu bizim gələcək planlarımızın və startegiyamızın əsas hissələrindən biridir. Federasiyamızın prezidenti artıq bununla bağlı idmançılar və məşqçilərlə görüşüb, onlara ciddi tapşırıqlarını verib. Dopinqlə məşğul olan idmançılar bizimlə bir sırada ola bilməz.

***Azər Əlizadə***

## Olimpiya mükafatçımız “Böyük dəbilqə” turnirində fərqləndi



Türkiyənin Antalya şəhərində cüdo üzrə “Böyük dəbilqə” turniri keçirilib. 63 ölkədən 525 (312 kişi, 213 qadın) cüdoçunun iştirak etdiyi yarışda Azərbaycan idmançıları da qüvvələrini sınayıblar. Komandamız turnirdə 17 (13 kişi, 4 qadın) cüdoçu ilə təmsil olunub. Cüdoçularımızdan yalnız Rio-2016 Yay Olimpiya Oyunlarının gümüş mükafatçısı Elmar Qasımov mükafatçılar sırasında yer alıb. 100 kq çəki dərəcəsində tatami üzərinə çıxan E.Qasımov yarışı bürünc medalla başa vurub. Mübarizəyə 1/32 final mərhələsindən başlayan cüdoçumuz Qriqori Minaskini (Estoniya), daha sonra Marko Kumriç (Xorvatiya) və Şadi Elnahası (Kanada) məğlub edib. 1/4 finalda Nikoloz Şerazadişviliyə (İspaniya) uduzan 32 yaşlı cüdoçumuz təsəlliverici görüşdə Asley Qonzalezə (Rumıniya) qalib gəlib. Cüdoçumuz bürünc medal uğrunda həlledici görüşdə kanadalı Kayl Reyesə qalib gələrək üçüncü yerə sahib çıxıb.

Qeyd edək ki, turnirdə mübarizə aparan digər cüdoçularımızdan Orxan Səfərov (66 kq) beşinci, Uşangi Kokauri (+100 kq) isə yeddinci yeri tutub.

## Federasiya prezidenti məşqçilərlə görüşüb

Azərbaycan Velosiped İdmanı Federasiyasının prezidenti Mədət Quliyev yığma və klub məşqçiləri ilə görüşüb. Görüş zamanı federasiya prezidenti və məşqçilər velosiped idmanında yüksək nailiyyətlərin əldə olunması yollarını müzakirə ediblər.



M.Quliyev velosiped idmanında kütləviliyin təmin olunması və idmançıların hazırlıq prosesində səmərəliliyin artırılmasının vacibliyindən danışaraq iş prosesində yol verilmiş nöqsanların aradan qaldırılması məqsədilə aidiyyəti tapşırıqlarını verib.

## *Magistrantlar qabaqcıl universitetin diplomunu alacaqlar*

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (ADBTİA) idman menecmenti ixtisası üzrə 2 magistrantı Böyük Britaniyanın Koventri Universitetində təhsillərini davam etdirərək hər iki ali təhsil ocağının diplomunu alacaqlar. ADBTİA-nın mətbuat xidmətindən verilən məlumata görə, Koventri Universitetində semestri bitirdikdən sonra tələbələr strateji liderlik və idarəetmə, peşəkar konsultasiya üzrə beynəlxalq sertifikat əldə edəcəklər.

Məlumatda bildirilib ki, bu uğur Akademiyanın inkişafı istiqamətində görülən işlərin məntiqi nəticəsidir. Belə ki, təhsil müəssisəsinin iki magistrantının xaricdə təhsil alması perspektivli və istedadlı gənclərin üzə çıxarılması, həmçinin ölkəmizdə bu sahədə peşəkar kadrların yetişdirilməsi deməkdir. Belə bir fəaliyyət gələcəyə hesablanmış əməkdaşlığın təməlidir.

Koventri Universitetinin Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının “İdman menecmenti” magistr proqramının standartını tanıması və müvafiq kreditləri qəbul etməsi nəticəsində bu əməkdaşlıq mümkün olub.

Qeyd edilən bu təhsil standartı Tübingen Universitetinin professoru, Avropa İdman İqtisadçılar Assosiasiyasının təsisçisi, Akademiyanın beynəlxalq konsultantı Tim Pavlovski tərəfindən dünya və Avropa standartlarına uyğun olaraq 2020-ci ildə yenidən tərtib edilib.

## Aprel şəhidlərinin xatirəsinə turnir keçiriləcək

Aprelin 9-10-da Şağan Olimpiya İdman Kompleksində Aprel şəhidlərinin xatirəsinə uşaq, yeniyetmə, kadet və gənclər arasında kikboksinq üzrə turnir keçiriləcək. Yarış Suraxanı Rayon Gənclər və İdman İdarəsi, Azərbaycan Kikboksinq Federasiyası və “Vətən” kikboksinq klubunun təşkilatçılığı ilə baş tutacaq.

Yarış kik-layt və lou-kik sistemi üzrə təşkil olunacaq.

Turnirin təşkilində əsas məqsəd bədən tərbiyəsi və idmanın kütləviliyinin təmin edilməsi, uşaq, yeniyetmə və gənclərdə kikboksinqə marağın artırılması, onlarda vətənpərvərlik hisslərinin gücləndirilməsi və asudə vaxtın səmərəli təşkilindən ibarətdir.

## *Məktəbli komandaları xatirə turnirində*

Buzovnada Xəzər Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə ümumtəhsil məktəblərinin komandaları arasında Aprel şəhidlərinin xatirəsinə həsr olunmuş minifutbol turniri keçirilib.

Turnir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi və şəhidlərimizin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Gərgin idman mübarizəsi şəraitində keçən turnirdə 120 nömrəli tam orta məktəbin komandası birinci olub. 121 nömrəli tam orta məktəb yarışı ikinci, 136 nömrəli tam orta məktəbin şagirdləri isə üçüncü pillədə başa vurublar.

Mükafatçılar Xəzər Rayon Gənclər və İdman İdarəsi tərəfindən diplom və medallarla təltif ediliblər.

## Şahmatçımız “ilk onluq”da



Beynəlxalq Şahmat Federasiyası (FIDE) aprel ayı üçün reytinq siyahısını açıqlayıb. İlk onluqda Azərbaycanın bir təmsilçisi yer alıb. Qrossmeysterimiz Şəhriyar Məmmədyarov (2771 xal) 10-cu sırada qərarlaşıb. Digər şahmatçımız Teymur Rəcəbov (2753 xal) isə 13-cü sıradadır.

Komandamızın üzvlərindən Qədir Hüseynov (2661 xal) 76-cı, Rauf Məmmədov isə (2656 xal) 83-cü pillədə yer alıblar.

Siyahıya əvvəlki kimi norveçli dünya çempionu Maqnus Karlsen (2864 xal) başçılıq edir. İkinci pillədə Fransanı təmsil edən gənc istedad Alireza Firuzca (2804 xal), üçüncü yerdə isə çinli Liren Dinq (2799 xal) qərarlaşıblar.

Qadınların reytinq cədvəlində isə ilk yüzlükdə şahmatçılarımız Günay Məmmədzadə 2454 xalla 24-cü, Gülnar Məmmədova (2387 xal) 62-ci, Xanım Balacayeva (2376 xal) 71-ci pillədədirlər.

Çinli Hou Yifan (2650 xal) qadınların reytinq cədvəlinə başçılıq edir. Rusiyalı Aleksandra Qoryaçkina (2610 xal) və çinli Ju Venjun (2560 xal) sonrakı iki pillədə qərarlaşıblar.

## REDAKSİYANIN POÇTUNDAN

## *Qalib idmançılarla görüş*

Lənkəran Şəhər İcra Hakimiyyətində Avropa, beynəlxalq və respublika yarışlarında yüksək nəticələr qazanan idmançılar və onların məşqçiləri ilə görüş keçirilib. Görüşdə bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı sayəsində ölkəmizdə bədən tərbiyəsi və idman sahəsində böyük inkişafa nail olunub. İdmanın inkişafı sahəsində görülən əməli işlər, bununla bağlı həyata keçirilən dövlət proqramları, yeni tikilən Olimpiya İdman kompleksləri, stadionlar, saysız-hesabsız idman qurğuları, ölkədə yüksək səviyyədə təşkil olunan beynəlxalq yarışlar Azərbaycanı dünyada idman ölkəsi kimi tanıtdırıb. Azərbaycan idmançılarının dünya, Avropa çempionatlarda, Olimpiya oyunlarında, beynəlxalq yarışlarda qazandıqları parlaq qələbələr göstərilən qayğının nəticəsidir. Lənkəranlı idmançılar da bu qayğıdan ruhlanaraq respublika və beynəlxalq yarışlarda uğurlu nəticələr qazanırlar. Bolqarıstanda keçirilən yunan-Roma güləşi üzrə sonuncu Avropa çempionatında Xasay Həsənlinin fəxri kürsünün ən yüksək pilləsinə qalxması hər bir rayon sakini üçün olduqca şərəfdir.



İdman uğurlarından danışan məşqçilər və idmançılar göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını bildiriblər.

Görüşün sonunda qazanılan qələbələr münasibətilə idmançılara, məşqçilərə qarşıdakı yarışlarda yeni uğurlar arzulanıb. Bir qrup idmançıya və məşqçiyə fəxri fərmanlar, pul mükafatları verilib.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

## “Təhsil” RİM-in respublika birinciliyinin qalibləri müəyyənləşdi

Stolüstü tennis üzrə “Təhsil” Respublika İdman Mərkəzinin respublika birinciliyi keçirilib. Beynəlxalq Stolüstü Tennis Federasiyasının qaydaları əsasında 2007-2008-ci, 2009-cu il və daha kiçik təvəllüdlü yeniyetmə oğlan və qızlar arasında təşkil olunan yarışda uşaq-gənclər idman-şahmat məktəblərindən 10 komanda olmaqla 90 idmançı iştirak edib.



Yekun nəticələrə görə, ümumi hesabda Sumqayıt şəhər 1 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman-Şahmat Məktəbi birinci yeri tutub. İkinci yerdə 1 nömrəli idman liseyinin, üçüncü pillədə isə Şabran rayon Uşaq-Gənclər İdman-Şahmat Məktəbinin komandaları qərarlaşıb.

Qaliblər “Təhsil” Respublika İdman Mərkəzi tərəfindən diplom və medallarla təltif olunublar.

## *Avropa Voleybol Konfederasiyasının prezidenti Bakıya gələcək*

Avropa Voleybol Konfederasiyasının (CEV) prezidenti Aleksandr Boriçiç bu ilin mayında Bakıya gələcək. Bu barədə Azərbaycan Voleybol Federasiyasının (AVF) baş katibi Fərid Xəlilov qurumun rəsmi saytına açıqlama verib. Onun sözlərinə görə, A.Boriçiçlə yanaşı, digər CEV rəsmiləri də ölkəyə təşrif buyuracaq. Səfər zamanı bir neçə vacib görüşlərin keçirilməsi nəzərdə tutulub.

# Futbol ulduzları qalereyasından...



*Mobil İSMAYILOV*

*(Əvvəli qəzetimizin 10-cu sayında)*

## Adlarını futbol tarixinə həkk etdirənlər

Futbolçuların əla formada olduğu bir dövr, mövsüm və ya mövsümlər olur. Belə hallarda əslində baş məşqçiyə də daha çox iş qalmır. Hərçənd ki, uğur ilk növbədə məşqçinin adına yazılır. Amma faktiki olaraq belə deyil. Futbol tarixində elə də möhtəşəm ad-sanı, titulları olmayan komandaların gözlənilmədən Çempionlar liqasının qalibi olmasını da məhz, əla formada olan oyunçuların bir-birini gözəl anlamaları və çox istəkli, əzmkar keyfiyyətləri ilə izah etmək mümkündür. Məsələn, “Srvena Zvezda”, “Styaua”. Eləcə də “Qalatasaray”ın da uğurlarını qeyd etmək olar. Başqa sözlə, belə komandaların gözlənilmədən böyük uğurlar qazanmaları futbolçuların, deməli, bütövlükdə klubların çiçəklənən dövrünə təsadüf edir. Bu məqamda Danimarkanın, Yunanıstanın Avropa çempionu olmasının yada salınması da yerinə düşər. Əlbəttə, uğurlara stimul verən digər amillər də vardır. Təbii ki, bəxt amilini də yaddan çıxarmaq olmaz. Bəxt hansı komandanın üzünə gülürsə, o da qalib gəlir. Yəni, futbolda da həyatda olduğu kimidir: “Moneta”nın hansı tərəfi üstə düşməsindən çox şey asılıdır. Bütün bunlar nəticə etibarı ilə yenə də ulduzları ön plana çəkir. Ona görə də qayıdaq futbol tarixində imzası olan ulduzlara. Mən vaxtı ilə braziliyalı Markos Kafunu dünyanın ən yaxşı müdafiəçilərindən biri hesab etmişəm. Əzmkarlığı, mübarizliyi, eyni zamanda fiziki göstəriciləri ilə fərqlənən Branislav İvanoviç də yadda qalan müdafiəçilərdən olub. Serbiyalı futbolçu 2008-ci ildə “Lokomotiv” Moskva komandasından “Çelsi”yə transfer olundu və dərhal da əsas heyətdə möhkəmləndi. Uzun müddət o, etibarlı oyunu ilə “Çelsi”yə böyük töhfələr verdi. Vaxtı ilə “Real”ın müdafiəçisi Miçel Salqadonun oyunu çox yaxşı təsir bağışlayırdı. İndi Alba onu mənə xatırladır. Bir vaxtlar “Real”ın uğurlarında böyük xidmətləri olan Marselonu əla futbolçu Roberto Karlos qədər bəyənirdim. İspan Quti Fernandes də özünəməxsus futbolçu olub. Tamaşaçıların həmişə rəğbətini qazanan Qutiyə hətta onda arabir müşahidə olunan sərt oyun da yaraşıb. “Milan”ın qol silahlarından biri olmuş Filippo İnzaqini ulduz hücumçu kimi qəbul edirdim.

Tyeri Anri ulduz futbolçu olsa da, mənim diqqətimi elə də cəlb etməyib. Həmçinin ulduz futbolçular kimi tarixə düşmüş Kannavaro, Kristian Vyeri, Krespo, Batistuta, David Trezeqe, Veron, Nistelroy, Məsut Özil mənim seçmələrdən ibarət futbol “qalereya”ma düşməyiblər. Görünür, mən onların oyunlarından elə də zövq almamışam.

Elə futbol ulduzu var ki, obrazlı desək, suda balıq kimidir. Hansı kluba gedirsə, ünsiyyət qurmağı bacarır, dərhal komandaya alışır, oyun tərzini əvvəlki səviyyədə qoruyub saxlayır. Elələri də olur ki, bu və ya digər formada problemlər yaşamağa başlayır. Ümumiyyətlə, futbol praktikası göstərir ki, komandaya tez uyğunlaşmaq çox vacibdir. Elə ulduz futbolçu var ki, ilk vaxtlar heyətə uyğunlaşa bilmir. Hər şeydən əvvəl bu, heyətə yeni qatılmağı ilə də izah oluna bilər. Xüsusən, böyük klublara uyğunlaşmaq elə də asan başa gəlmir. “Real”da oyunu bu və ya digər səbəblərdən alınmadığına görə Aryen Robben və Uesli Sneyder orada qala bilmədilər. Robben “Bavariya”ya, Sneyder isə “İnter”ə keçdi. Hər ikisi çıxış etdikləri komandaların heyətində əsas oyunçulara çevrildilər və əla mövsümlər keçirdilər. Futbol həvəskarlarına bəllidir ki, “Qalatasaray”ın möhtəşəm nailiyyətlərində braziliyalı Mario Jardelin çox böyük xidmətləri olub. Türk klubundan ayrılıb “Sportinq”ə keçdikdən sonra braziliyalı ulduz tədricən formadan düşməyə başladı.

Yeri gəlmişkən, türk futbolçularından Hakan Şükür, Bülent Qorxmaz, Sərgən Yalçın, Ümid Karan rəğbət bəslədiyim oyunçular olub. Hasan Şaşın da “Qalatasaray” komandasında misilsiz xidmətlərini etiraf etmək lazımdır. Fikrimcə, yeri gələndə onun rolu və faydası doğma komandasına daha çox olub, nəinki Okan və Əmrə.






Bəzi ulduz futbolçular yeni komandaya gələrkən nömrə istəyini də irəli sürürlər. Məsələn, İsrailli Haim Revivo əvvəl “Fənərbağça”da, sonra da “Qalatasaray”a keçərkən hökmən “10” nömrəli formanı tələb etmiş və hər iki komandada da bu nömrə ilə çıxış etmişdir. Etiraf edim ki, Revivo da xoşladığım futbolçu olub. Mən vaxtı ilə “Bayer” Leverkuzendə oynayan Yıldıray Baştürkü də ən yaxşı yarımmüdafiəçilərdən biri hesab edirdim. Türkiyə millisinin dünya üçüncüsü olmasında onun xidmətlərini xüsusi vurğulamaq lazımdır. Hazırdaisə İlkay Gündoğanı mükəmməl yarımmüdafiəçilərdən biri kimi qəbul edirəm.

Gəlin, etiraf edək ki, İstanbul derbiləri əvvəllər daha maraqlı keçirdi və ulduzların “savaşına” çevrilirdi. İndi əvvəlki futbol intriqaları müşahidə edilmir.

## Baxışlar və reallıqlar

Ecazkar, əsrarəngiz futbol oyunlarına baxarkən meydanda nələr görmürük: Həyəcan, təlaş, qorxu, sevinc, titrəyiş...Belə anlarda necə deyərlər, adamın ürəyi ağzına gəlir. Qışqırmaqdan sanki səs telləri qırılır. Birdən də stadiona sükut çökür. Dilxor olanlar qalsın bir yana. Hönkür-hönkür ağlayan tamaşaçılar da olur. Futbol dünyasında elə oyunlar olur ki, azarkeş özünü unudub haldan çıxanda sanki hiss edir ki, ruhu bədəndən ayrıla bilər. Bu zaman tamaşaçı hansı hala düşdüyünü, keçirdiyi hissləri, duyğuları izah etmək istəmir və ya izah etmək gücündə olmur. Məhz, bu anları yaradanlar da zəfər buludlarına qalxan ulduz futbolçulardır. Azarkeşləri, tamaşaçıları təlatümə, riqqətə gətirən ulduzlar daha uzun müddətə tarixdə qalır. Kluvert yaxşı futbolçu olub, qollar vurub, amma təlatümə səbəb olmayıb. Qol vuran yaxşı hücumçulara heç də həmişə ulduz futbolçu demək fikir ayrılığına da səbəb ola bilər. Yaşlı futbol həvəskarları əla bombardirlik, snayperlik keyfiyyətlərinə malik olan qol silahı Herd Mülleri yəqin ki, xatırlayırlar. Amma hərdən mənə elə gəlir ki, sanki o, unudulmaq üzrədir. Əslində çox yaddaqalan, möhtəşəm qolları olmayıb. Karlos Tevesiproblem yaradan, yola getməyən futbolçu kimi Argentina yığmasının baş məşqçiləri ayrı-ayrı vaxtlarda yığmaya dəvət etməkdən ehtiyatlanıblar. Bir qayda olaraq Messi ilə yanaşı Qonzalo İquainə, Esekuel Lavezziyə, Serxio Aqueroya üstünlük veriblər. Və yaxud Balotelli. Belələri məncə həmişə yadda qalmır. Bilmirəm beləlmajorini ulduz futbolçular qrafasına salmaq olar, ya yox. Əlbəttə, fərqli fikirlər ola bilər. Həmçinin də Koutinyo. O da “Barselona”ya adaptasiya ola bilmədi. Mən heç vaxt, elə indi də onu ulduz futbolçu kimi qəbul edə bilmirəm. Yaxud, “Barselona”ya uyğun futbolçu olmadığına görə Qrizmanın da transferi özünü doğrultmadı. Onun da ulduz futbolçu sayılıb-sayılmamasını oxucuların mülahizəsinə saxlayıram. Hərdən Suaresi anlamaq həqiqətən çox çətindir. Bəzən elə çətin vəziyyətlərdən qol vurur ki, adam gözlərinə inanmır. Ancaq elə də olur ki, qapıçı ilə təkbətək qalanda, hətta boş qapıya da qol vura bilmir.




Məşhur ulduz futbolçu olmaqları ilə yanaşı necə deyərlər, pozitiv enerji ötürməyi bacaran, oyunlarına baxanda indi də məmnun qaldığım Pisarro, Xavyer Zanetti, Steven Cerrard, Dieqo Forlan, Pirlo həm də aristokratlıqları ilə həmişə diqqət mərkəzində olublar. Perulu Pisarro “Bavariya” və “Verder”in heyətində fantastik mövsümlər keçirmişdir. 19 il “İnter”in şərəfini qorumuş argentinalı hazırda klubun vitse-prezidentidir. Onun geyindiyi 4 nömrəli forma italyan klubunda Zanettinin şərəfinə birdəfəlik əbədiləşdirilmişdir. “Mayestro” ləqəbli Andrea Pirlo Amerikaya gedənə qədər - yəni 2015-ci ilədək yalnız İtaliya klublarında çıxış edib.2016-2017-ci illərdə fəaliyyətini ABŞ-nın “Nyu-York Siti” klubunda davam etdirib və orada da karyerasını bitirib. İngilislərin sevimlisi Cerrard isə yarım il ABŞ-da çıxış etməsini nəzərə almasaq, karyerasıboyu yalnız “Liverpul”da oynayıb.Çoxsaylı pərəstişkarları tərəfindən həmişə, hər yerdə rəğbətlə qarşılanan Dieqo Forlan da “qalereya”nın əbədi sakinlərindəndir. Serxio Ramosa eyni zamanda kapitanlıq sarğısı çox yaraşırdı. O, əsl kapitan olub. Həm klubunda, həm də yığmada. Yəni, kapitan funksiyasını əla yerinə yetirib. Axı, kapitan nümunə olmalıdır. Eyni zamanda onu həmişə qəbul ediblər. Belələrinə az-az təsadüf olunur. Ramos həm də ən çox qol vuran müdafiəçidir. Yeri gəlmişkən məşhur Roberto Karlos da qol vuran müdafiəçilərdən hesab olunub.

Gəlin, qapıçıları da yaddan çıxarmayaq. İtaliyanın futbol tarixində milli komandada ən çox oyun keçirən Canluici Buffondur. 1999-cu ildən “Real” da çıxış etmiş İker Kasilyasa böyük sevgi olub. O, yığmada da nüfuz sahibi idi. Cənubi Koreya ilə matçda oyunsonrası penaltilərin heç birini dəf edə bilmədi. Bundan sonra məşhur qapıçının imici bir qədər aşağı düşdü. Viktor Valdes, Co Hart haqqında da mütəxəssislər yuksək fikirdə olublar. Alman qapıçılar - Oliver Kan, Yens Leman da tam qəbul edilməklə çoxdan tarixə düşüblər.

Hərdən fikirləşirəm ki, Braziliyadan, Argentinadan nədən belə möhtəşəm futbolçular yetişir. Avropadan da hazırda İspaniyanın, Portuqaliyanın adlarını çəkmək olar. Bu ölkələrdən həm də yaxşı məşqçilər çıxır. Bir də ki, Allah hər bir ölkəyə özünəməxsus enerji çalarları, paylar, nəfəs verir. Görünür, sadəcə məsələ onları necə yönləndirməkdə, həmin paylardan, bəxş olunanlardan necə istifadə etməkdədir.

Yeri gəlmişkən, millilər arasında həmişə ən böyük rəqabət Braziliya yığmasında olur. Burada ulduzlar çoxluq təşkil etdiyindən heyətə düşmək çətin olur.Yığmada oynamaq isə braziliyalılar üçün şərəfdir.

Bəli, futbol aləmində elə anlar vardır ki, obrazlı desək, ömrün aylarına, illərinə bərabər ola bilər. Və bu bir dəfə verilən həyat nəinki həftələrlə, aylarla, hətta nə qədər qəribə görünsə də, anlarla da ölçülə bilər. Elə unudulmaz anlar da baş verir ki, arxada qalan, yaxud da sonradan gələn həyat mərhələləri ilə eyni, bəlkə də artıq da görünür.

Mən futbol axınında ən azı itib-batmayan, mütəxəssislərin diqqətinə, marağına səbəb olan, azarkeşlərin qəlbində yer tapan, çoxsaylı pərəstişkarları olan, imzalar içində özlərini təsdiq etmiş futbolçulardan söz açdım. Əsl futbol ulduzları beyinləri ilə ayaqlarını birgə işlədənlərdir. Onlar usta ayaqlar və usta beyinlər sahibidir. Çoxları da inkişaf etmiş futbol zəkalı insanlardır. Onlar necə deyərlər, öz “imzası” olan futbolçulardır. Ən başlıcası isə onlar ürəklərə yol tapan, tarix yazan, azarkeşlərin, tamaşaçıların ruhunu, könül dünyasını fəth edən futbolçulardır.

# F U T B  L

## Azərbaycan Premyer Liqası: “Neftçi” son dəqiqədə məğlubiyyətdən xilas oldu



Futbol üzrə Azərbaycan Premyer Liqasında XXI turun oyunları keçirilib. Turun açılış matçında “Qarabağ” klubu “Səbail” komandasını qəbul edib. “Azersun Arena”da keçirilən görüş Ağdam təmsilçisinin 5:1 hesablı qələbəsi ilə yekunlaşıb. Matçda hesab erkən qolla açılıb. Üçüncü dəqiqədə fərqlənən Leandro Andrade Ağdam klubunda ilk qolunu vurub. Kabo-verdeli yarımmüdafiəçi 41-ci dəqiqədə dubl edib. Matçın 53-cü dəqiqəsində Ramil Şeydayev qonaqları növbəti dəfə məyus edib. Üç dəqiqə sonra yenidən fərqlənən Azərbaycan millisinin hücumçusu özünün 2-ci, komandasının isə 4-cü qolunun müəllifi olub. Qarşılaşmanın 62-ci dəqiqəsində “dənizçilər” hesab arasındakı fərqi azaldıblar. Nikolas Raysel penaltini dəqiq yerinə yetirib. Görüşdə son nöqtəni isə Elvin Cəfərquliyev qoyub. Görüşün 86-cı dəqiqəsində rəqib qapısına yol tapan müdafiəçi yekun hesabı müəyyənləşdirib - 5:1.

Bu qələbədən sonra xallarının sayını 49-a çatdıran “Qarabağ” turnir cədvəlində liderliyini möhkəmləndirib. “Səbail” isə 11 xalla sonuncu - 8-ci pillədə qalıb.

Günün növbəti görüşündə “Sumqayıt” klubu “Kapital Bank Arena”da “Sabah” komandasını qəbul edib. Baş hakim Kamal Umudlunun idarə etdiyi qarşılaşma qonaqların qələbəsi ilə yekunlaşıb - 0:3. Hesabı 22-ci dəqiqədə Aleksey İsayev açıb. Bundan 3 dəqiqə sonra Xuan Kamara fərqi artırıb. Oyunda son nöqtəni isə 50-ci dəqiqədə uzaq məsafədən baxımlı qolla Coy-Lens Mikels qoyub.



Beləliklə, xalını 29-a çatdıran “Sabah” 5-ci pillədə yer alıb. “Sumqayıt” ardıcıl 12-ci matçında qələbəyə həsrət qalıb. “Gənclik şəhəri” təmsilçisi sonuncu dəfə 2021-ci il oktyabrın 31-də “Səbail” üzərində qələbə qazanıb - 2:0. Hazırda “Sumqayıt” komandası 14 xalla 7-ci yerdə qərarlaşıb.

Turun növbəti oyunu aprelin 3-də Qəbələ şəhər stadionunda təşkil olunub. Burada “Qəbələ” komandası “Keşlə”ni qəbul edib. Baş hakim Fərid Hacıyevin idarə etdiyi oyun 1:1 hesabı ilə yekunlaşıb.

İlk qolu 32-ci dəqiqədə “Keşlə”nin futbolçusu Merab Gigauri vurub. Gürcüstanlı yarımmüdafiəçi baxımlı qolla keçmiş komandasını məyus edib. Fasilədən dərhal sonra meydana daxil olan Omar Hani 47-ci dəqiqədə tarazlığı bərpa edib.

51-ci dəqiqədə qonaqlar azlıqda qalıb. Tərlan Quliyev top uğrunda mübarizə zamanı “Qəbələ”nin legioneri Rafael Utziqi vurmağa cəhd etdiyi üçün birbaşa qırmızı vərəqə alıb.

Lakin meydan sahibləri say üstünlüyündən yararlana bilməyib. Beləliklə, tərəflər hərəyə 1 xalla kifayətlənməli olub.

Bu nəticədən sonra xalını 34-ə çatdıran “Qəbələ” 4-cü, 20 xala malik “Keşlə” 6-cı pillədə qərarlaşıb.

Tura “Neftçi” və “Zirə” komandalarının oyunu ilə yekun vurulub.

“Bakcell Arena”dakı qarşılaşma 1:1 hesabı ilə başa çatıb. “Zirə”nin qolunu 88-ci dəqiqədə Ahmed Ayzaya vurub. Meydan sahiblərində isə Tiaqo Bezerra 90+5-ci dəqiqədə penaltidən fərqlənib.

59-cu dəqiqədə “qartallar”ın heyətində Coşqun Diniyev ikinci sarı vərəqəni alaraq meydandan qovulub. Matçın 77-ci dəqiqəsində isə “Neftçi”də Eddi İsrafilov eyni aqibəti yaşayıb.

Bu oyundan sonra “Neftçi” 38 xalla ikinci sırada qərarlaşıb. “Neftçi”dən 2 xal az toplayan “Zirə” isə üçüncü sırada yer alıb.

## *Millimiz FIFA reytinqində geriləd*i

FİFA milli komandaların növbəti reytinq cədvəlini açıqlayıb. Ötən ay açıqlanmış reytinq cədvəli ilə müqayisədə Azərbaycan millisi FİFA reytinqində səkkiz pillə geriləyib.

Canni De Byazinin baş məşqçi olduğu komanda 1127 xalla 129-cu sırada qərarlaşıb.

Qeyd edək ki, yığmamız bu il keçirdiyi yoldaşlıq görüşlərində Malta və Latviyaya 0:1 hesabı ilə məğlub olub.

## AFFA-nın nümayəndələri UEFA-nın seminarında

UEFA-nın təşəbbüsü ilə Danimarkanın Brondbü şəhərində fitness seminar təşkil olunub.

4 gün davam edən seminarda AFFA-nın texniki direktoru Cahangir Həsənzadə, təhsil proqramının rəhbəri Aslan Kərimov və təlimatçı Osman Rəhimov iştirak ediblər.



## Açılış mərasimindən sonra ev sahibləri oynamayacaqlar

Futbol üzrə 2022-ci il dünya çempionatının final mərhələsinin püşkü atılıb. Qətərin paytaxtı Dohadakı mərasimdə qrupların tərkibi müəyyənləşib. Mərasimdə püşkü dünya futbolunun tanınmış simalarının da yer aldığı 8 veteran oyunçu çəkib.

Qətər - Ekvador qarşılaşması isə həmin gün Bakı vaxtı ilə saat 20:00-da start götürəcək.

Hazırda mundialın final mərhələsinin 29 iştirakçısı məlumdur. Pley-of mərhələsində daha 3 komandanın adına iyunda aydınlıq gələcək.

FIFA 2022-ci il dünya çempionatının təqvimində sonradan dəyişiklik edib. Belə ki, mundialın açılış matçı ev sahibi Qətərlə Ekvador arasında deyil, Seneqal və Niderland yığmaları arasında olacaq. Noyabrın 21-də oynanılacaq görüş Bakı vaxtı ilə saat 14:00-da başlayacaq.

Avropa zonası üzrə Şotlandiya - Ukrayna oyununun qalibi finalda Uelslə üz-üzə gələcək. Birləşmiş Ərəb Əmirlikləri / Avstraliya cütünün qalibi Peru ilə, Yeni Zelandiya isə Kosta-Rika ilə görüşəcək.

Qeyd edək ki, DÇ-2022 noyabrın 21-dən dekabrın 18-dək təşkil olunacaq.




## *Dünya çempionatının rəsmi topu və maskotu təqdim edilib*




Beynəlxalq Futbol Federasiyası (FIFA) 2022-ci ildə Qətərdə keçiriləcək dünya çempionatının rəsmi topunu təqdim edib. Bu barədə FIFA-nın mətbuat xidməti məlumat yayıb. “Adidas” şirkəti tərəfindən hazırlanan çempionatın topu “Al Rihla” adlandırılıb ki, bu da ərəb dilində səyahət mənasını verir. Topun təqdimatı ilboyu dünya çempionatının keçirildiyi şəhərlərdə və dünyanın daha on şəhərində keçiriləcək.



Dünya çempionatının maskotu da ictimaiyyətə təqdim olunub. “La’eeb” adlanan maskot “super bacarıqlı oyunçu” mənasını verir.

Dünya idmanı



## Las-Veqas Formula 1 yarışına ev sahibliyi edəcək

ABŞ-ın Las-Veqas şəhəri 2023-cü ildə Formula 1 yarışına ev sahibliyi edəcək. Yarışın noyabrda gecə saatlarında şəhər trekində keçirilməsi nəzərdə tutulub.

Trekin uzunluğu 6,12 km olacaq. Trek şəhərin ən böyük kazinolarının yerləşdiyi Las-Veqas-Strip bulvarından keçəcək. Bu, 1982-ci ildən sonra ABŞ-da üçüncü Qran-Pri olacaq. Hazırda bu ölkədə Mayami və Ostin mərhələləri də keçirilir.

1981-1982-ci illərdə də Las-Veqasda Formula 1 yarışı keçirilib.





## Premyer Liqada əvəzetmə sayı artırılıb

2022/2023 mövsümündən futbol üzrə İngiltərə Premyer Liqasında beş əvəzetməyə icazə veriləcək. Bu barədə Liqa rəhbərliyi qərar çıxarıb. Əvəzetmələrdən 3-ü oyun vaxtı, 2-si isə fasilədə gerçəkləşə bilər. Bundan əlavə, komandanın ehtiyat heyətində ən çoxu 9 oyunçunun adı qeyd olunacaq.

Həmçinin İngiltərədə yay transfer dönəmi iyunun 10-dan sentyabrın 1-dək davam edəcək.

Premyer Liqada koronavirusla bağlı sağlamlıq protokolunda da dəyişiklik olunub. Futbolçular həftədə iki dəfə test verməyəcək. Yalnız simptomlar hiss edən oyunçulardan test götürüləcək.

Qeyd edək ki, İngiltərə Premyer Liqasında hazırda 3 əvəzetmə qaydasından istifadə edilir.

## *Üç ölkənin FIFA-ya üzvlüyü dayandırılıb*

Pakistan, Zimbabve və Keniyanın FIFA-ya üzvlüyü dayandırılıb. Müvafiq qərar ali futbol qurumunun Qətərin paytaxtı Dohada keçirilən 72-ci Konqresində qəbul olunub.



Daha əvvəl Rusiyanın da üzvlükdən kənarlaşdırması və ya dayandırılma məsələsinin səsverməyə çıxarılacağı ehtimal edilirdi. Lakin Konqresdə bu məsələ qaldırılmayıb.

Fevralın sonlarında FIFA və UEFA Rusiya klubları ilə yığmalarını Ukraynaya hərbi müdaxilə səbəbindən beynəlxalq yarışlardan müvəqqəti uzaqlaşdırıb. Rusiya Futbol İttifaqı (RFS) bu qərardan İdman Arbitraj Məhkəməsinə (CAS) apellyasiya verib. Məsələyə aprel-may aylarında baxılacağı gözlənilir.

İclasda bundan başqa rus dilinin FIFA-nın altı rəsmi dilindən biri olması barədə də qərar qəbul edilib. Federasiyalardan 187-si bunun lehinə, 4-ü isə əleyhinə səs verib.

Rus dili ilə yanaşı, portuqal və ərəb dilləri də rəsmi dil kimi qəbul edilib.

Daha əvvəl ingilis, ispan və fransız dilləri ali futbol qurumunun rəsmi dil statusunu əldə edib.

## Rusiyadan alınan olimpiadanın tarixi müəyyənləşdi

Bu il Hindistanda keçiriləcək 44-cü Ümumdünya Şahmat Olimpiadasının tarixi müəyyənləşib. Yarış iyulun 28-dən avqustun 14-dək keçiriləcək. Bu barədə Beynəlxalq Şahmat Federasiyasının (FİDE) rəsmi saytında məlumat yer alıb.

Məlumatda qeyd edilib ki, 1927-ci ildən təşkil olunan mötəbər yarış Hindistanda ilk dəfə, Asiyada isə 30 ildən sonra keçiriləcək.

Xatırladaq ki, Şahmat Olimpiadası Rusiyada keçirilməli idi. Lakin Rusiya-Ukrayna münaqişəsi ilə əlaqədar olimpiadaya ev sahibliyi hüququ Rusiyadan alınıb.

**olimpnews.az - sizin saytınız**




## NBA əfsanəsi ölümlə üz-üzə

NBA-nın canlı əfsanələrindən biri olan Şakil O'Nil sağlamlıq problemləri ilə mübarizə aparır. Nəfəs almaqda çətinlik çəkən keçmiş NBA ulduzu, ciddi yuxu pozğunluğu ilə üzləşib.

O'Nil bu xəstəliyə görə yuxu aparatından istifadə etmək məcburiyyətində qalıb.

"Həkimlər mənə dedilər ki, yuxu apnesi hipertoniya və ya insult yarada bilər. Ona görə də ölə bilərsiniz", - deyə basketbolçu bildirib.



Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

DİQQƏT! Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

Qiyməti 40 qəpikdir. Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19